

**“Bu gün Azərbaycanla Rusiya arasında münasibətlər strateji tərəfdaşlıq səviyyəsindədir. Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına rəsmi səfəri yüksək səviyyəli münasibətlərimizin bariz ifadəsidir”. Bu fikirləri Milli Məclisin beynəlxalq münasibətlər və parlamentlərarası əlaqələr komitəsi sədrinin müavini, YAP-ın Beynəlxalq əlaqələr şöbəsinin müdiri Sevinc Fətəliyeva bildirdi.**

# Birinci vitse-prezidentin səfəri Azərbaycan–Rusiya münasibətlərinin daha da yaxşılaşdırılmasında mühüm rol oynayacaq



Deputat dedi ki, səfər çərçivəsində Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva Rusiya Federasiyasının Prezidenti Vladimir Putinlə Baş nazir Dmitri Medvedevlə və Rusiya Federasiyası Şurasının sədri Valentina Matviyenko ilə görüşüb, eləcə də, çoxsaylı tədbirlərdə iştirak edib. Onun sözlərinə görə, Mehriban xanım Əliyevanın Rusiya Federasiyasına səfər proqramı kifayət qədər zəngin olub.

Azərbaycanın Birinci vitse-prezidentinin Rusiya Federasiyasına səfəri və səfər çərçivəsində keçirilən görüşlərdə səmimilik şəraitində müzakirə edilən məsələlərin geniş spektri iki ölkə arasında mehriban qonşuluğu, tərəfdaşlığı və dostluğu əks etdirir.

S.Fətəliyeva qeyd etdi ki, Azərbaycanın qonşu dövlətlərlə xoş mərama əsaslanan siyasətinin müsbət təzahürlərini, həmçinin Rusiya ilə münasibətdə görmək mümkündür: “Azərbaycan və Rusiya həm yaxın qonşu, həm də mehriban dostlardır. Əlamətdar haldır ki, iki ölkənin münasibətləri getdikcə möhkəmlənir və zamanın dəyişən çağırışlarına uyğun olaraq, yeni çalarlarla daha da zənginləşir. Azərbaycanla Rusiya arasında müxtəlif istiqamətləri əhatə edən münasibətlər onilliklər ərzində sınaqdan çıxan tarixi ənənələrə söykənir. Ümumiyyətlə, Azərbaycan -- Rusiya əlaqələri çoxşaxəli səciyyə daşıyır. Həyatın elə bir sahəsi yoxdur ki, Azərbaycanla Rusiya sıx əməkdaşlıq etməsinlər. Azərbaycanla Rusiya arasında əməkdaşlığın yüksələn xətlə inkişafına iki ölkənin dövlət başçıları arasında formalaşan dostluq münasibətlərinin rolunu xüsusi vurğulamaq lazımdır”.

Ölkələrimiz arasında siyasi dialoqun yüksək səviyyədə olduğunu vurğulayan deputat bunu dövlət başçıları və yüksək səviyyəli rəsmilərin mütəmadi görüşlər keçirməsi və əməkdaşlığın müxtəlif aspektlərini müzakirə etmələri ilə əlaqələndirdi: “Azərbaycanla Rusiyanın dövlət başçıları arasında yüksək dinamizmi ilə fərqlənən siyasi dialoqun ruhuna uyğun olaraq iki ölkə arasında iqtisadi əlaqələr də adekvat şəkildə inkişaf edir. Mehriban xanım Əliyeva iqtisadi əməkdaşlığı Azərbaycanla Rusiya arasında ikitərəfli gündəliyin ən mühüm komponentlərindən biri kimi səciyyələndirib. Bütövlükdə, Mehriban xanım Əliyevanın Rusiyaya rəsmi səfəri çərçivəsində siyasi, iqtisadi, humanitar, mədəni və digər sahələrlə bağlı geniş müzakirələr aparılıb. Hesab edirəm ki, bu səfər Azərbaycan-Rusiya münasibətlərinin inkişafına böyük töhfələr verəcək”.

***Söhbəti qələmə aldı:***
***Əliqismət BƏDƏLOV,***
***“Xalq qəzeti”***

Xalq qəzeti.- 2019.- 28 noyabr. S. 2.